## Əmanətlər qaytarılır

İyul ayı ərzində 263 min 215 əmanətçiyə 147 milyon manatdan çox vəsait ödənilib

«Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında» ölkə başçısının 14 mart 2012-ci il tarixli fərmanına uyğun olaraq iyunun 1-dən etibarən «Kapital Bank»ın xidmət məntəqələrində əmanətçilərdən müraciətlərin qəbuluna başlanılıb. Müraciətlər 31 dekabr 2012-ci il tarixinədək davam edəcək. Müraciətlərin qəbulu və fərdi birdəfəlik ödəmələrin verilməsi məqsədilə «Kapital Bank» tərəfindən ümumilikdə 143 məntəqə yaradılmışdır ki, bu məntəqələrdən 65-i Bakı şəhərində, 78-i isə respublikamızın digər regionlarında fəaliyyət göstərir. İtmiş, yaxud yararsız vəziyyətə düşmüş əmanət kitabçaları üzrə müraciətlərin qəbulu məqsədilə Bakıda 3, Naxçıvan, Gəncə və Sumqayıt şəhərlərinin hər birində 1 əlavə məntəqə təşkil edilib. Digər rayon və şəhərlərdə bu müraciətlər «Kapital Bank»ın yerli filiallarında qəbul olunur.

Müraciətlərin qəbulunun ilk həftəsində fərdi birdəfəlik ödəmələrlə bağlı 68850 müraciət daxil olmuş və göstərilən müddət ərzində 6.200 əmanətçiyə 3.904.000 manat məbləğində fərdi birdəfəlik ödəmə verilmişdir. Ödənilən vəsaitlərin məbləğləri çoxalır: iyulun 30-dək «Kapital Bank»ın xidmət məntəqələrinə 449 min 69 müraciət daxil olmuş, müraciətlərdən 393 min 16-sı məntəqələrdən mərkəzə təqdim edilmişdi. Dövr ərzində 263 min 215 əmanətçiyə ümumilikdə 147.131.879,60 manat ödənilib. Bu tarixə əmanət kitabçasının itməsi və ya korlanması ilə bağlı banka daxil olan müraciətlərin sayı isə 7838 olub.

«Kapital Bank» ASC idarə heyətinin sədri Elmar Məmmədov vətəndaşlar üçün bəzi aydınlaşdırılmalı məqamları izah etmək məqsədilə bankın saytında yerləşdirilən müsahibəsində bildirib ki, fərdi birdəfəlik ödəmələrin hesablanması mexanizmi ölkə başçısının 2012-ci il 14 mart tarixli fərmanı ilə təsdiq edilmiş «Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi Qaydaları»na əsasən müəyyən edilmişdir. «Kapital Bank»da fərdi birdəfəlik ödəmələr həmin qaydaların tələbləri əsasında hazırlanmış kompüter proqramı vasitəsilə hesablanır. Hesablama proqram təminatı vasitəsilə aparıldığından, burada hər hansı yanlışlıq tam istisnadır. Onun sözlərinə görə, bu məsələdə əmanətçilər arasında anlaşılmazlıq yaradan başlıca səbəb bəzi əmanətçilərin hesablama qaydaları barədə lazımi qədər məlumatlı olmamaları, əmanət qalığının tarixi ilə bağlı əsas şərtin bir çox hallarda nəzərə alınmamasıdır. E.Məmmədov bildirmişdir ki, sənədlərin qəbulu zamanı xidmət məntəqələrində əmanətçilərə verilən qəbzdə əmanət hesabındakı qalıq tam göstərilir, vətəndaşların müəyyən bir qismi də güman edir ki, ödəmə qəbzdə göstərilmiş məbləğ üzrə hesablanmalıdır. Əslində, fərdi birdəfəlik ödəmə Əmanət Bankında yalnız 1992-ci il yanvarın 1-dək olan qalığa verilir. Bu tarixdən sonrakı dövrə aid olan əmanət qalığı hesab bağlanarkən ödəmə məbləğinə əlavə edilsə də, həmin qalığa fərdi birdəfəlik ödəmə hesablanmır. Ona görə də vətəndaşlar onlara çatacaq fərdi birdəfəlik ödəmənin məbləğini hesablamaqdan ötrü xidmət məntəqələri tərəfindən verilmiş qəbzdəki son qalığa yox, 1992-ci il yanvarın 1-dək olan əmanət qalığına əsaslanmalıdırlar.

«Kapital Bank» ASC-nin idarə heyətinin sədri onu da bildirmişdir ki, vətəndaşlar onları narahat edən məsələlərlə bağlı bankın baş ofisində yaradılmış «Qaynar xətt» xidmətinə müraciət edə bilərlər.

AYTƏN